**AYNUR ABDULLAYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı***
aynurabdulla01@gmail.com

# BİBLİOQRAFİK GÖSTƏRİCİLƏRDƏ İNFORMASİYANIN SİSTEMLƏŞDİRİLMƏSİNİN ÜSULLARI

***Xülasə:****Məqalədə biblioqrafik fəaliyyətin əsas proseslərindən biri olan biblioqrafiyalaşdırmanın metodikası, biblioqrafik göstəricilərin yaradılması, bu göstəricilərdə informasiyanın sistemləşdirilməsi və onun üsulları şərh edilir.*

***Açar sözlər:*** Biblioqrafiyalaşdırma, informasiya, biblioqrafik göstərici, informasiyanın sistemləşdirilməsi

**Giriş:** Bəşəriyyətin bu gün sahib olduğu informasiya yığını tarixin ilk dövrlərindən günümüzə qədər bütün bəşəriyyətin birgə səyləri nəticəsində formalaşmış çox qiymətli bir xəzinədir. Bu xəzinədən insanlar daim istifadə edir, yaradılan məlumatlara yeniləri əlavə olunur və bu proses sürətlə artmaqda davam edir. Hər keçən gün daha çox böyüyən bu informasiya yığını bugünkü insanları məlumat axtarmaq və əldə etməkdə bir çox problemlə üz-üzə qoyur. Tarixdən mədəniyyətə, siyasətdən iqtisadiyyata, elm və sənətə qədər fərqli sahələrdəki dəyişikliklər bilik və məlumat əldəetmə səviyyəsinin qat-qat artmasına səbəb oldu və informasiyaya əlçatarlıq vacib problem olaraq ortaya çıxdı. Günümüzdə informasiya texnologiyalarının ərsəyə gətirdiyi yenilik və imkanlar ilə bu imkanlar nəticəsində ortaya çıxan audiovizual vasitələr daha mükəmməl formada gələcəyi formalaşdırmağa və gələcəyi bu gündən qurmağa kömək etməkdədir.

İnformasiya texnologiyalarının inkişafı nəticəsində artan məlumat və sənədlərin çoxluğu həmçinin müxtəlifliyi onların idarə olunmasının önəminin artırılmasını mühüm məsələ kimi qarşıya qoyur, informasiyanın işlənib hazırlanmasını eyni zamanda yoxlanılmasını və standart bir struktura gətirilməsini zəruri edir.

**Məsələnin qoyuluşu:** İnformasiyanın miqdarının artmasına baxmayaraq, insanların informasiya tələbatı lazımi səviyyədə ödənilmirdi. İnformasiyaya ehtiyacı olanların axtardıqları məlumatları tapma və əldə etmə mərhələsində yaşadıqları problemlər məlumatların idarə edilməsini zərurətə çevirir. Bu problemin əsas səbəblərindən biri biblioqrafik fəaliyyətin düzgün təşkil olunmamasıdır.

Ölkəmizdəki kitabxanalarda biblioqrafik fəaliyyətin əsas proseslərindən biri olan biblioqrafiyalaşdırmanın metodiki məsələləri ilə bağlı bir sıra işlər görülmüşdür.

Biblioqrafiyalaşdırma - biblioqrafik məlumatın hazırlanması prosesidir. Biblioqrafiyalaşdırma prosesi məcburi ünsür kimi kitabxananın komplektləşdirmə, ədəbiyyatın işlənməsi və oxuculara xidmət proseslərində istifadə edilir. (2.s.4)

Günümüzdə ölkəmizin biblioqrafik vəsaitlər sisteminin formalaşması sahəsində biblioqrafiyalaşdırma mühüm fəaliyyət sahəsi kimi diqqəti cəlb edir. Sənədlərin biblioqrafiyalaşdırılmasının vacib istiqamətlərindən biri də biblioqrafik vəsaitdir.

Biblioqrafik təsvirlərin mütəşəkkil toplusunu əks etdirən və beləliklə biblioqrafik informasiyanın cəmiyyət üzvləri tərəfindən səmərəli istifadə olunmasını təmin edən formaya "biblioqrafik vəsait" adı verilir. (1.s.22) Biblioqrafik vəsait biblioqrafik məlumatın ən geniş yayılmış üsullarından biridir. Biblioqrafik vəsaitlər formalarına, tiplərinə, janrlarına görə fərqləndirilir. (1.s.23) Biblioqrafik vəsaitlərin tərtibi və çap edilməsi bu gün ən aktual məsələlərdəndir. İstifadəçilərin informasiya tələbatının ödənilməsini nəzərə alaraq yaradılan biblioqrafik göstəricilər müxtəlif mövzuları əhatə edir. Biblioqrafik göstərici dövri, qeyri-dövri, ardı davam edən nəşr, kataloq və kartoteka formasında olur.

İnformasiya xarakterli nəşrlərin tərtibi kitabxanaların tipoloji xüsusiyyətlərindən asılıdır. Çoxlu sayda biblioqrafik yazıların məcmusundan ibarət olan biblioqrafik göstəricilər aşağıdakı məqsədlərlə tərtib olunur:

- ◆ □ elmi işə kömək;
- ◆ □ təhsilə və şəxsi təhsilə, pedaqoji və təbliğat işinə kömək;
- ◆ □ ixtisası artırmaq;
- ◆ □ istehsalat fəaliyyətinə kömək və s.

**Məsələnin izahı :** Çap olunan müxtəlif növlü biblioqrafik göstəricilərin tərtibi ilə biblioqraflar məşğul olur. Biblioqrafik göstəricilərin tərtibi biblioqraf üçün əsas keyfiyyətdir. Biblioqrafik fəaliyyətin bir subyekti kimi biblioqraf biblioqrafiyalaşdırmanın ümumi və xüsusi metodlarını mükəmməl şəkildə mənimsəməlidir. (1.s.29) Mürəkkəb strukturlu biblioqrafik göstəricinin hazırlanması üç əsas mərhələdən ibarətdir: hazırlıq, əsas (analitik, sintetik) və yekun mərhələ

Hazırlıq mərhələsinə mövzunun seçilməsi və öyrənilməsi, vəsaitin proqramının (prospektinin) hazırlanması,ədəbiyyatın meydana çıxarılması əməliyyatları daxildir. (2.s.7) Biblioqraf hazırlanacaq vəsaitin mövzusunu seçərkən ilk növbədə onun aktuallığına diqqət yetirməlidir. Daha sonra kitabxananın profilini, oxucu tələbatını mövzunun əsas istiqamətlərini nəzərə almalıdır. Tərtibatçı-biblioqraf seçilmiş mövzuya aid problemlər və onların başlıca həlli yollarını bilməlidir. Mövzuya uyğun olan əvvəlcədən hazırlanmış və yaxud sonradan hazırlanması planlaşdırılan biblioqrafik göstəricilərlə tanış olmalıdır.

Mövzu seçildikdən və təsdiq edildikdən sonra biblioqrafik göstəricinin plan-prospekti işlənib hazırlanmalıdır. Plan-prospekt biblioqrafik göstəricinin tərtib edilməsi üzrə işi tənzimləyən əsas sənəddir. Proqram (plan) vəsaitin əsas ideyasını, məqsəd və oxucu istiqamətlərini özündə əks etdirir. Proqramda (plan) oxucu istiqaməti, yəni onun hansı oxucu qrupu üçün nəzərdə tutulduğu qeyd edilməlidir. Plan-prospekt müəyyən məntiqi sxem üzrə sərbəst şəkildə yerinə yetirilir və özündə aşağıdakıları ehtiva edir:

- ◆ biblioqrafik göstəricinin məzmunu;

- mövzunun əsaslandırılması;
- göstəricinin məqsəd və oxucu istiqaməti;
- materialların meydana çıxarılması mənbələri
- məzmun quruluşu (təsnifat sistemi, bölmə və yarımbölmələr və onların daxili quruluşu qaydası)
- daxil olan ədəbiyyatın seçilməsi prinsipləri: tematik çərçivələr, əlaqəli fənlər üzrə ədəbiyyatın daxil edilməsi; formal əlamətlərə görə seçim: xronoloji, dil, ərazi çərçivələri;
- sənədlər üçün informasiya axtarışı;
- əsas mənbələrin nəzərdən keçirilməsi;
- sənədlərin biblioqrafik təsviri, onların annotasiyanın xarakterik xüsusiyyətləri (məlumat, tövsiyyə,qrup, analitik, ümumi) ;
- biblioqrafik göstəricinin təsnifatı sxemi;
- seçilmiş sənədlərin sistemləşdirilməsi;
- köməkçi göstəricilər sistemi;
- biblioqrafik göstəricinin qeydiyyatı.

Bundan başqa proqrama (plan) mövzu ilə bağlı uzunmüddətli iş planı, biblioqrafik göstəricinin həcmi (şərti olaraq), gözlənilən bitmə tarixi, müəlliflər qrupunun tərkibi, elmi redaktor və s. daxildir. Plan-prospektdə dəyişikliklər edilərsə əvvəlcədən tərtibçilər tərəfindən müzakirə olunmalı və prospektin xüsusi əlavəsində qeyd olunmalıdır. Biblioqraf - tərtibatçı mövzunun öyrənilməsi və vəsaitin plan- prospektinin tərtib edilməsi ilə eyni zamanda informasiya axtarışına başlamalıdır. Sənədin informasiya axtarışı dedikdə əvvəlcədən müəyyənləşdirilmiş əlamətlərə görə vəsaitin mövzusuna uyğun olan ədəbiyyatı toplamaq başa düşülür. İnformasiyanın meydana çıxarılma mənbələri şərti olaraq 2 hissəyə: əsas və əlavə mənbələrə bölünür. Əsas mənbələr geniş, əlavə mənbələr isə səthi xarakter daşıyır.

Məlum olduğu kimi biblioqrafiyalaşdırmanın ikinci mərhələsi əsas mərhələdir. Əsas mərhələ də özündə analitik və sintetik mərhələləri ehtiva edir. Analitik mərhələ – bu rnərhələdə müəyyən edilmiş sənədlərin ümumi biblioqrafik təhlili, biblioqrafik təsvirlərin tərtibi, indeksləşdirilməsi, predmetləşdirilməsi, onlara annotasiya və referat yazılması işi həyata kcçirilir.Analitik mərhələdə plan-prospektə uyğun olaraq sənədlər haqqında biblioqrafik yazıların hazırlanması tələb olunur. Burada hər sənədlə işləmək və ədəbiyyatın içindən ən zəruri ədəbiyyatları seçmək lazımdır. Analitik mərhələdə biblioqrafik təsvirin standarta uyğun olması, yoxlanması mühüm əhəmiyyətə malikdir. (Biblioqrafik təsvir DÖST AZS 754-2013 “Biblioqrafik yazı.Biblioqrafik təsvir. Ümumi tələblər və tərtib qaydaları”na uyğun olmalıdır.) Qeyd etmək lazımdır ki, biblioqrafiyalaşdırmanın analitik mərhələsinə annotasiya, yaxud referat yazmaq, sənədlərin indeksləşdirməsi, predmetləşdirməsi aiddir.

Biblioqrafiyalaşdırmanın sintez mərhələsi analitik mərhələdə görülən işlərin ümumiləşdirilməsidir. Sintez mərhələdə əldə edilən və öyrənilmiş ədəbiyyatların seçilməsi prosesləri həyata keçirilir. Qeyd etmək lazımdır ki, sintez

mərhələdə biblioqrafik yazılar qruplaşdırılır. Biblioqrafik yazıların qruplaşdırılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, biblioqrafik yazıların qruplaşdırılması əldə edilmiş sənədləri məntiqi və sistemli şəkildə təsnifləşdirməyə imkan verir. Qruplaşdırma lazım olan materialların oxucular tərəfindən daha rahat və asanlıqla tapılmasına kömək edir. Biblioqrafik yazıların qruplaşdırılmasını üç növə bölmək olar: formal, məzmun və tövsiyə.

Sənədlərin formal düzülüşü materialların xarici əlamətinə görə axtarışı təmin edir. Formal düzülüşünün ən geniş yayılmış forması xronoloji düzülüşdür. Xronoloji düzülüş isə adından görüldüyü kimi ədəbiyyatı yazılma tarixi və nəşr tarixinə görə qruplaşdırır.

Materialların məzmununa görə qruplaşdırılmasında bir elm sahəsi, elmi problem əsas əlamət kimi götürülə bilər. Məzmuna görə qruplaşdırmanın da üç növü fərqləndirilir: sistemli, mövzu və predmet. Sistemli qruplaşdırmada əsas şərt məntiqlilik, ardıcıllıq və stabillikdir. Sistemli düzülüş bütün tip göstəricilərdə, o cümlədən, ümumi və sahəvi göstəricilərdə istifadə oluna bilər. Mövzu üzrə qruplaşdırma, adətən, bir və ya bir neçə elm sahəsinin ədəbiyyatını özündə əks etdirən kompleks və proqram xarakterli biblioqrafik göstəricilərdə tətbiq olunur. (2.s.33) Predmet qruplaşdırması isə daha çox sahəvi elmi-köməkçi biblioqrafik göstəricilərdə istifadə edilir.

Tövsiyə qruplaşdırılmasında biblioqrafik məlumatın qiymətləndirilmə funksiyasının açıq fəal şəkildə meydana gəlməsi tamamilə aydın nəzərə çarpır. (2.s.34) Tövsiyə biblioqrafiyasının mütəxəssislər həmçinin elmi işçilər üçün nəzərdə tutulan vəsaitlərdə istifadəsi məqsədə müvafiqdir.

Biblioqrafiyalaşdırmanın sonuncu mərhələsi yekun mərhələdir ki, burada məlumat – metodiki aparatının tərtibi, onun redaktə olunması və biblioqrafik göstəricinin formalaşdırılması ilə əlaqədar işlər yerinə yetirilir. Məlumat – metodiki aparat dedikdə müqəddimə, giriş məqaləsi, köməkçi göstəricilər, əlavələr və metodiki məsləhətlər daxildir. Müqəddimədə qismən vəsaitin qısa forması izah olunur. Bütün tip biblioqrafik göstəricilərdə müqəddimə olması vacibdir. Giriş məqaləsinin dəqiq yazılması xüsusi önəm kəsb edir. Buna görə də o elmi redaktor və həmin sahənin mütəxəssisi ilə birlikdə yazılmalıdır.

Köməkçi göstərici biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədi güdür. Köməkçi göstəricilərin axtarış üçün xüsusi əhəmiyyəti vardır. Axtardığı əsəri daha tez tapmaq üçün oxucu onların vasitəsi ilə bu prosesi asanlaşdıra bilir. Köməkçi göstərici dedikdə biblioqrafik vəsaitin çap əsərləri haqqında ayrı-ayrı məlumatları müvafiq biblioqrafik yazılara isnad etməklə vəsaitin əsas mətndəkindən fərqli aspektdə əks etdirən hissəsi kimi başa düşülür.

Yardımçı göstəricilərin vasitəsi ilə bütün kitabların nəşr olunduğu yeri, dili, saxlandığı kitabxana haqqında məlumatları əldə etmək olar. Yardımçı göstərici biblioqrafik vəsaitin sənədlər haqqında məlumatları əks etdirən və müvafiq bibliqrafik qeydlərə istinadlar edilən hissəsidir. Oxucuların hər hansı bir vəsait üzrə düzgün istiqamətlənmə və ondan lazımi səviyyədə faydalana

bilməsi üçün həmin vəsaitlərə verilən köməkçi göstəricilərin quruluşu sadə, dili anlaşıqlı olmalıdır.

İnformasiya axtarış aparatının daha çox yayılmış bir sıra növləri müəyyən olunub. Bunlar aşağıdakılardır:

- müəlliflərin köməkçi göstəricisi
- adlar göstəricisi
- coğrafi göstərici
- nömrələrin göstəricisi
- predmet göstəricisi
- sistemli göstərici
- mövzu göstəricisi
- sərlövhələrin göstəricisi
- kollektivlərin göstəricisi
- nəşr yerinin göstəricisi
- xronoloji göstəricisi
- dillər göstəricisi

Biblioqrafik vəsaitlərə verilən köməkçi göstəricilər axtarışın vaxtını minimuma endirmək məqsədilə tərtib olunur.

Biblioqrafik vəsaitlər üzərində aparılan işlər göstəricinin redaktə olunması və müəyyən bir formaya salınması ilə başa çatır. Göstəricinin biblioqrafik redaktəsi aşağıdakıları nəzərdə tutur:

◆ daxil olan sənədlərin biblioqrafik təsvirinin yoxlanması, onların yekdilliyi və dəqiqliyi, mövcud standartlara cavab verməsi;

◆ seçilmiş sənədlərin göstəricinin təsnifatı sxeminə və onun bölmələrinə uyğunluğu;

◆ səhvlərin və aşkarlanması;

◆ biblioqrafik yazıların düzgün nömrələnməsi;

Elmi redaktəyə həmin sahə üzrə mütəxəssis biblioqraf və ya biblioqraf olmayan mütəxəssis cəlb olunur. Ədəbi redaktəyə vəsaitin korrektə edilməsi aiddir. Bu zaman rast gəlinən səhvlər və qeyri-dəqiqliklər, təkrarlamalar, uğursuz ifadələr düzəldilir. Bölmələr, bölmə adları, alt bölmələr və rubrikalar yenidən yoxlanılır. Ədəbi redaktə zamanı üslub xətaları, söz təkrarları və s. səhvləri aradan qaldırmaq məqsədilə göstəricinin diqqətlə oxunması mühüm əhəmiyyət kəsb edir.

**Nəticə:** Sonda Titul vərəqi və titul vərəqinin arxası yazılmalı və indeks göstərilməlidir. Hər bir biblioqrafik vəsait titul vərəqi ilə başlayır. Titul vərəqində tərtibatçı və ya tərtibatçıların adı, soyadı və atasının adı, vəsaitin adı və ona aid məlumatlar, vəsaitin hansı kitabxana tərəfindən buraxıldığı qeyd olunur.

Biblioqrafik vəsaitlərin bədii tərtibatı müxtəlif illüstrasiya materiallardan geniş istifadə olunmasını nəzərdə tutur. Biblioqrafik göstəricinin xarici dizaynının elementləri vəsaitin əsas məzmununu açıqlamalıdır.

**İstifadə edilmiş ədəbiyyatın siyahısı**

1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.-Bakı:2001,141s.
2. İsmayılov N. Vəzirova R. Biblioqrafik tərtibatın metodikası.-Bakı.:Mütərcim, 2004.-52s.
3. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının bəzi metodik məsələləri// Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası/ Azərbaycan Dövlət Universiteti.-1978. -№1.- S.26-38.
4. Библиографическая работа в библиотеке:организация и методика. Учебник.-М.: «Книжная палата», 1990.-254с.
5. www.anl.az
6. www.jstor.org

***Айнур Абдуллаева***

## *СИСТЕМАТИЧЕСКИЕ МЕТОДЫ ИНФОРМАЦИИ В БИБЛИОГРАФИЧЕСКИХ ПОКАЗАТЕЛЯХ*

### *РЕЗЮМЕ*

*В статье дается трактовка методологии библиографии как одного из основных процессов библиографической деятельности, создания библиографических указателей, систематизации информации в этих указателях и их методов.*

***Ключевые слова:*** Библиографический, информационный, библиографический показатель, систематизация информации

***Aynur Abdullayeva***

## *METHODS OF SYSTEMATIZATION OF INFORMATION IN BIBLIOGRAPHIC INDICATORS*

### *SUMMARY:*

*The article provides an interpretation of the methodology of bibliography one of the main processes of bibliographic activity, the creation of bibliographic pointers, the systematization of information in these pointers and their methods.*

***Key words:*** Bibliography, information, bibliographic indicator, information systematization

**Rəyçi:** p.ü.f.dok.,dos. N.İ.İsmayılov